21.Əhmədov E. Müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı daha da genişlənir // «Xalq qəzeti» 30 sentyabr 2012.
22.Yenə orada.
23.Əhmədov E. Müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı daha da genişlənir // «Xalq qəzeti» 30 sentyabr 2012.

## NEW STAGE IN AZERBAIJAN-TURKEY RELATIONS
## ( 2003-2008 years)

***Huseynova Rimuna Zakir***

***Summary***

At an official reception at the Gulustan Palace on the occasion of his election as President on October 31, 2003, Ilham Aliyev expressed his views on Turkish-Azerbaijani relations, "Wherever is Turkey , Azerbaijan is there, wherever is Azerbaijan , Turkey is there" In 2003, agreements were signed on very important strategic projects that connect Azerbaijan and Turkey more closely. Both countries faced the implementation of these projects and were successful.

## АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ
## (новый этап 2003-2008)

***Гусейнова Римуна Закир кызы***

***Резюме***

На торжественной церемонии во Дворце Гюлистан по случаю президентских выборов 31 октября 2003 года, Ильхам Алиев рассказал о турецко-азербайджанских отношениях: «Где Турция, там и Азербайджан там, где Азербайджан, там и Турция », - сказал он и показал будущее в направление отношений между двумя странами. В 2003 году Азербайджан и Турция стали ближе друг к другу и были подписаны ряд соглашений по очень важным стратегическим проектам. Перед обеими странами стояла реализация этих проектов , и эти проекты были успешно реализованы.

***Rəyçi: dos.Bağırzadə Cavid***
***Azərbaycan tarixi kafedrasının 26 oktyabr 2021-ciil tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 27 oktyabr 2021-ci il***

**UOT-94**

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

***İsmayılov İsmayıl Akif oğlu***
***Gəncə Dövlət Universiteti***
***ismayilov81@mail.ru***

**Xülasə:** *Tarixin inkişaf prosesi göstərir ki, SSRİ və Türkiyənin iki tərəfli münasibətlərinin tədqiq edilməsi bu gündə öz aktuallığını saxlamaqdadır. Belə ki, beynəlxalq münasibətlər sistemində SSRİ və Türkiyə öz yerlərini tutmaq üçün, ikitərəfli əlaqələrdən geniş şəkildə istifadə etmişlər. Sovet-Türk münasibətlərini 30-cu illərin ortalarına qədər bütövlükdə dostluq və qardaşlıq münasibətləri kimi səciyyələndirmək olar. SSRİ və Türkiyənin İkinci Dünya Müharibəsi illərindəki münasibətləri isə çox təzadlıdır. Buna görədə bu dövrün tədqiq edilməsi qarşımıza məqsəd qoyulmuşdur.*

*İkinci Dünya Müharibəsi illərindəki SSRİ – Türkiyə münasibətlərinə ümumilkdə nəzər salsaq, görərik ki, SSRİ 1941 -ci ildə müharibəyə qatılana qədər Türkiyənin bitərəf qalmasını istəyirdi. Ona görə də, münasibətlər müsbət məcərada davam etmişdi. Bu vəziyyət, Sovetlərin Alman ordularını məğlub etməyə başladığı tarixə qədər davam etdi. Üfüqdə zəfər işığı göründükdən sonra SSRİ Türkiyəni neytral saxlamaq üçün yeni siyasət izləməyə başladı.*

*Xüsusi ilə də Boğazlar məsələsində Türkiyənin üzərinə gəlməyə başlamışdı. Belə bir mühitdə SSRİ-Türkiyə münasibətləri gərginləşdi. Hətta elə zamanlar oldu ki, bütün münasibətlər qırılma nöqtəsinə gəldi. Bunun əsas səbəbi isə SSRİ-nin artıq Türkiyənin köməyinə ehtiyacı olmadığını düşünməsi və Türkiyəni müharibədən sonra qurulacaq dünya nizamından kənarlaşdırmaq istəməsidir. Bununlada iki ölkə arasındakı siyasi ziddiyyətlər sosial və iqtisadi problemlər özünü göstərmişdi. Bu isə münasibətləri daha da kəskinləşdirmişdi.*

**Açar sözlər:** SSRİ, Türkiyə, Almaniya, İkinci Dünya Müharibəsi, beynəlxalq münasibətlər, Boğazlar məsələsi, razılaşma, müqavilə.

**Keywords:** USSR, Turkey, Germany, World War II, international relations, Straits issue, agreement, treaty.

**Ключевые слова:** СССР, Турция, Германия, Вторая мировая война, международные отношения, проблема проливов, соглашение, договор.

1930-cu illərin əvvəllərində dünyada baş verən dəyişikliklər Türkiyənin xarici siyasətində zəruri dəyişikliklərə səbəb oldu. Xüsusən Millətlər Cəmiyyətindən gələn üzvlük təkliflərinə isti baxmağa başladı. Nəticə də Qərb dövlətləri ilə yaxınlaşma prosesi başlamaqda idi. Bu şərtlər daxilində Türkiyə - SSRİ münasibətlərində də, dəyişiklik qaçılmaz olaraq ortaya çıxdı. Bu münasibətlər fonunda Moskvanın narahatlığı günbə-gün artmaqda idi. Lakin 1933-cü ildə Balkan Antanta məsələsi yenidən gündəmə gələndə Türkiyə ilə SSRİ arasındakı yaxşı münasibətlər sarsılmağa başladı. Belə ki, birliyin arxasında İngiltərənin nəzarəti altında Millətlər Cəmiyyəti dayanırdı. Buna görə də, İngilislərin antanta istədiyi Sovetlərə yaxşı məlum idi. Türkiyə ilə İngiltərənin yaxınlaşmasının SSRİ-yə qarşı olacağı Sovet İttifaqı tərəfinfən düşünülməyə başlandı. Buna görə də Türkiyə Moskvaya Sovet İttifaqına qarşı bir ittifaqa girməməyi öhdəsinə götürür. Ancaq SSRİ-nin bu öhdəlikdən çox razı qaldığını söyləmək mümkün deyildir.

9 fevral 1934-cü ildə Balkan Paktı imzalandı. Bu Türk-Sovet münasibətlərində bir qədər soyuqluğu artırdı. Sovet İttifaqı xarici siyasəti səbəbindən belə bir paktın həyata keçirilməsini istəmirdi. Ancaq getdikcə daha da gərginləşən Avropa siyasi səhnəsində Balkan Dövlətlərinin belə bir pakta çox ehtiyacları var idi. Nəticədə, Pakt qarşılıqlı danışıqlar nəticəsində imzalandı. Sovetlərin narahatlıqları Türkiyə tərəfindən Sovet İttifaqına rezervasyon məktubu verilərək aradan qaldırıldı. [1, səh. 157]

Əslində Türkiyə isə SSRİ ilə münasibətlərini pozmaq fikrində deyildi. Çünki SSRİ-dən Türkiyəyə kredit verilməsi sözü alınmışdı. Münasibətlər isə inkişaf tempində idi. Bunun bariz nümunəsi, İsmet İnönünün 25 aprel – 10 may 1932-ci ildə Moskvaya səfəri nəticəsində SSRİ -nin Türkiyəyə 8 milyon dollarlıq kredit açacağı razılaşdırılmışdı. Yardımın həyata keçirilməsinə dair protokol 21 yanvar 1934 -cü ildə Ankarada imzalanmışdı. [2, səh. 110-111] Bu tarixdən sonra İkinci Dünya Müharibəsinin ilk əlamətləri tədricən Avropada görünməyə başladı. Türkiyə bu müddət ərzində SSRİ ilə ahəngdar münasibətlərini qorusa da, bəzi məsələlərdə Sovet İttifaqından ümid etdiyi dəstəyi ala bilmədi.

Dəyişən dünya balansları Türkiyənin Lozannadan sonra Boğazlarda yeni addımlar atmasının zəruriliyini ortaya qoydu. Bu məqsədlə 22 iyun 1936-cı ildə Montrödə Türkiyənin təşəbbüsləri ilə Boğazların gələcəyini təyin etmək üçün bir konfrans keçirildi. Bu konfransdan əvvəl Türkiyə və Sovet tələbləri paralel olsa da, konfrans zamanı ortaya çıxan yeni sovet tələbləri iki ölkə arasındakı münasibətlərdə bir qədər ayrılığın var olduğu məlum oldu. Konfransda SSRİ ilə Türkiyə arasında ciddi fikir ayrılıqlarının olduğu açıq şəkildə müzakirəyə səbəb oldu. Buna baxmayaraq, Sovet nümayəndələri müqavilənin mətnini imzaladılar. [3, səh. 475]

Müqavilə Türkiyənin Boğazlar üzərində ümumi üstünlüyünü təsdiqlədi. Türkiyənin Montrödəki zəfəri, Boğazları tamamilə nəzarət altına almasına şərait yaratdı. Sahillərinin yenidən silahlandırılması beynəlxalq ictimai rəydəki təsirini əhəmiyyətli dərəcədə artırdı. Həm də Türkiyənin bölgədə gücləndirdi. [4, səh. 20-21]

Qeyd etməliyik ki, SSRİ razılaşmadan qismən razı qaldı. Çünki, müqavilə ilə Qara dənizdə sahili olmayan ölkələrin döyüş gəmilərinin keçməsinə müəyyən məhdudiyyətlər qoyulmuşdu. Sovet ordusu gəmiləri isə maneəsiz olaraq Aralıq dənizinə üzmək hüququnu əldə etmişdilər. Lakin Moskva ümumilkdə bunu özü üçün yetərli hesab etmirdi. [5, səh. 12]

Montrödən sonra əvvəlcə Türkiyə, sonra isə Sovet İttifaqı iki ölkənin rəsmiləri bir araya gələrək, bir növ pakt qurmaq üçün müxtəlif danışıqlar aparsalar da, müxtəlif səbəblərdən hər dəfə razılığa gəlmək mümkün olmadı. Hər dəfə SSRİ tərəfindən Boğazlar Anlaşmasının dəyişdirilməsi tələbləri iki tərəf arasında dərin uçuruma səbəb olurdu. Nəhayət Türkiyə və SSRİ 14 sentyabr 1937 -ci ildə Nyon Konfransına qatıldılar və Boğazlar məsələsi dünya dövlətləri ilə birlikdə müzakirə edildi. Nəhayət Aralıq dənizinin təhlükəsizliyi üçün imzalanan müqavilə ilə bir qərara gəlindi. [6, səh. 117]

Vurğulamaq lazımdırki, Nyon Konfransında Aralıq dənizinin təhlükəsizlik bölgələrinə bölünməsi və silahlı nəzarət postlarının qurulması təklif edildi. Bu postların idarə edilməsində Sovetlərə verilməsi nəzərdə tutulan rol, Atatürk və Türkiyə hakimiyyəti tərəfindən ziddiyyətli hesab edildi. Çünki Sovetlərə Egey dənizinin şimal hissəsini müdafiə etmələri məsləhət görülürdü. Sovetlər və İtaliya arasında mümkün bir gərginlik və qarşıdurma vəziyyətində Türkiyənin ortada qalması mümkün idi. Nəticədə, digər Balkan dövlətləri də bu vəziyyətdən narazılıqlarını ifadə etdilər. Bu bölgənin ilk növbədə İngiltərə və Fransa, sonra isə kiçik Balkan dövlətlərinə ehtiyac olduğu halda Sovetlər tərəfindən müdafiə ediləcəyi qərara alındı. İtaliyaya Aralıq dənizinin müdafiəsində də rol verildi. Nyon Konfransı zamanı Türkiyə İngilislərə yaxınlaşdı və Sovetlərdən ayrılmağa başladığını göstərərək birlikdə hərəkət etdi.

Bu konfransdan sonra Türkiyə Qərb dövlətləri ilə əlaqələrini daha yüksək səviyyəyə qaldırdı. SSRİ - Türkiyə münasibətləri isə soyumağa başladı. İnönün baş nazir postunu tərk etməsi bunu daha da sürətləndirdi. Beləki, yeni hökuməti qurmaq vəzifəsi Celal Bayara verildi. Bu dövrdə münasibətlər pozulma prosesinə girdi. SSRİ Xalq Komissarları Sovetinin sədri V. Molotovun Türkiyənin qurulmasının 15-ci ildönümü münasibətilə Baş nazir Celal Bayara göndərdiyi təbrik məktubuda bu səbəbdən son dərəcə soyuq idi. Bu təbrik yalnız bir cümlədən ibarət idi. [5, səh. 12]

Nəticə də, 1938-ci ildə İzmir və Qarsdakı Sovet konsulluqları, Odessa, Bakı, Gümrü (Leninakan) və İrəvandakı Türk konsulluqları bağlandı. Lakin SSRİ -nin İstanbuldakı konsulluqları və Batumdakı Türk konsulluqları fəaliyyətlərini davam etdirdilər. İki ölkə arasında ticarət dövriyyəsi də azaldı. [5, səh. 12]

Atatürkün 10 noyabr 1938-ci il tarixdə vəfat etməsindən sonra İsmət İnönü Türkiyə Respublikasının Prezidenti seçildi. İsmet İnönü, Mustafa Kamal Atatürkün ölümündən sonra təxminən 12 il Prezident olaraq çalışdı. O, daxili və xarici siyasət tətbiqetmələri ilə Türkyə siyasi tarixində əhəmiyyətli izlər qoydu. [7, səh. 572-573] İnönünün ehtiyatlı qərar vermə xüsusiyyəti Atatürk Dövründə onun “İkinci Adam” unvanını almasına səbəb olmuşdu. İkinci Dünya Müharibəsi dövründə Onun yürütdüyü daxili və xarici siyasət Türkiyənin iqtisadi və hərbi yaralar almadan xilas ola bilməsinə kömək olmuşdu. İnönü Atatürkün müharibədən yeni çıxan Türkiyəni müharibəyə daxil etməmək siyasətini bilərək, Atatürk xarici siyasət anlayışına nə qədər yaxın olduğunu göstərdi. [8, səh. 247-253]

Onu da söyləməliyik ki, 1937-1938-ci illər İkinci Dünya Müharibəsinin ayaqlarının səsinin eşidildiyi tarixlərdir. Bu prosesdə həm Türkiyə, həm də Sovet İttifaqı Avropa dövlətləri ilə əlaqə quraraq ölkələrinin təhlükəsizliyini təmin etməyə çalışırdılar. Bununla bərabər, bu illərdə SSRİ-Türkiyə münasibətlərində də bir qədər durğun illər olduğunu söyləyə bilərik.

İkinci Dünya Müharibəsi başlamazdan əvvəl ümumi bir qiymətləndirmə aparsaq, Türkiyə 30-cu illərdə Avropada inkişaf edən siyasəti çox yaxşı izlədi. Revizionist və antirevizionist qruplarla münasibətlərində tarazlığı çox yaxşı qorudu. SSRİ və Türkiyə İngiltərə, Fransa və Almaniya ilə danışıqlar aparırdı. Bu məqamda Türkiyə apardığı danışıqlar barədə Sovetlərə

məlumat verərkən, Sovetlər Türkiyəni öz ikili danışıqları barədə məlumatlandırmaqdan yayındı.

Bu münasibətlər fonunda Türkiyə Xarici İşlər Nazirliyi, 4 may 1939-cu ildə xaricdəki səfirliklərinə bildiriş məktuları göndərdi. Bildirişin mətinindən məlum olur ki, Avropada başlayacaq hər hası bir müharibədə Türkiyə İngiltərə-Fransa və SSRİ ilə əlaqələrin əsasını təyin etmişdi. Buna görə də Türkiyə, İngilislərə və Fransızlara yaxın bir siyasət izləməkdə olacaqdı. Sovetlərlə mövcud dostluğunu daha yüksək səviyyəyə qaldırılmasını zəruri hesab edəcəkdi. [9, səh. 25-26]

Bu arada SSRİ-də öz təhlükəsizliyini düşünərək avropa dövlətləri ilə münasibətlərini formalaşdırmaqda idi. Buun bariz nümunəsini SSRİ Almaniya arasında imzalanan müqavilədə görə bilərik. Almaniyanın xarici işlər naziri Yoahim von Ribbentrop və Sovet həmkarı Molotov arasında 1939-cu il 23 avqustda Moskvada on illik qarşılıqlı sülh müqaviləsi imzalandı. Bu razılaşmadan dərhal sonra Türkiyənin xarici işlər naziri Şükrü Saraçoğlu Moskvaya getdi. Sovetlərin irəli sürdüyü tələblər həm Türk-Sovet münasibətlərini sarsıtdı, həm də Türkiyəni müttəfiqinin səmimiliyini şübhə altına almağa məcbur etdi. Saraçoğluna, Sovetlərin Qars və Ardahan kimi Türk torpaqları üzərində hüquqları olduğunu söylədilər. İngiltərə və Fransa ilə hərbi razılaşmaların Türkiyə milli maraqlarına uyğun olduğunu anlayaraq, Türkiyə Sovetlərin təkliflərini rədd etdi. Çünki Türk dövlət adamları, Stalinin Polşanın yarısını işğal etməklə kifayətlənməyəcəyini çox yaxşı bilirdilər. Bununlada Saraçoğlunun Moskvadakı görüşləri bitdi. [5, səh. 13-14]

Nəhayət Almaniya 1 sentyabr 1939-cu il tarixində Polşaya hücum edərək, İkinci Dünya Müharibəsini başlatdı. Müharibədən əvvəl Türkiyə ilə Sovet İttifaqı arasında 1939-cu ilin aprelində başlayan bəzi danışıqlar oldu. Qarşılıqlı ittifaq müqaviləsi nəzərdən keçirildi. Danışıqlar zamanı hər iki dövlət inkişaf etməkdə olan Avropa siyasi vəziyyətini izləyirdi. Türkiyə İngiltərə və Fransaya yaxınlaşarkən, Sovet İttifaqı Almaniyaya daha yaxın idi.

Bu dövrdə yenə də SSRİ ilə razılığa gəlməyə çalışan Türkiyə, sentyabrın 5 -də SSRİ xarici işlər naziri Molotovdan Türkiyə səfirinə, dəyişən dünya şəraitində əlaqələrin fərqli bir şəkildə həll edilməsi lazım olduğu cavabını aldı. [6, səh. 214] Sovet tərəfi Türkiyədən boğazların statusunun dəyişdirilməsini və onlara bir baza verilməsini tələbini davam etdirirdi. Sovetlərin bu tələbi qarşısında Türkiyə İngiltərə-Fransız oxunda xarici siyasətdə bir tarazlıq istədi. Bu ölkələrlə ittifaq qurdu. Sovetlərin Türkiyəyə basqıları bütün müharibə boyu davam etdəcəkdi. Bu istəklər Türk siyasi tarixində Qərb blokunda təhlükəsizlik axtarışının əsas səbəbi idi. Təhlükəsizlik axtarışlarının qərb oxunda əvvəlcə İngilislərə, sonra ABŞ tərəfə yönəldi. Nəticədə İkinci Dünya Müharibəsi zamanı Türkiyənin izləyəcəyi balanslaşdırılmış siyasətinin ana xətti dost-düşmən anlayışının qeyri-müəyyənliyi içərisində həyata keçirildi.

Bu zaman kəsiyində həm də, Dünya Müharbəsində iştirak edən və etməyən bütün dövlətlər hesablamalarında Türkiyənin əhəmiyyətini və yerini çox yaşı dərk etməkdə idiər. Türkiyə isə buna uyğun olaraq bir mövqe tutmuşdu. Təbii olaraq, ilk növbədə, bu dövlətlərin müxtəlif məqsədlər üçün təzyiqlər, vədlər və təhdidləri ilə üzləşəcəyinidə bilirdi.

Yuxarıda qeyd edilənlərə uyğun olaraq, İkinci Dünya Müharibəsi dövründə Türk xarici siyasətinin əsas prinsipi isə müharibəyə girməmək, nəyin bahasına olursa olsun müharibədən kənarda qalmaq idi. Xarici siyasətə belə bir prinsipi tətbiq edənlər, xüsusən İsmet Paşa, bu siyasəti Məclis, partiya və ictimaiyyət xaricində aparırdılar. Türkiyənin müharibədən kənarda qalma prioritetləri və Balkanlarda müharibənin yayılmasının qarşısını almaq üçün işə başladı. Bu baxımdan İnönü, Türkiyənin müxtəlif regional ittifaqlara yönləməsi siyasətini izləməsini qəbul etdi. Türkiyə, qopacaq olan böyük bir müharibəyə qarşı regional önləmələr almış və qonşularından doğa biləcək təhlükələri əngəlləməyə çalışmışdı. [10, səh. 347]

SSRİ-Türkiyə dostluğu İkinci Dünya Müharibəsinin yaratdığı böhranla tamamilə sarsıldı. Qarşılıqlı münasibətlərdə durğunluq dövrü başladı. Müharibə dövründə İngiltərə dövləti bu dostluğun pozulmasını istəmirdi. İngiltərənin Moskvadakı səfiri, dostluq əlaqələri

olan Türkiyə ilə Sovet Rusiyası arasındakı əlaqələri yaxşılaşdırmağa çalışır və Stalinlə belə görüşlər keçirdi. Lakin bu görüşlərdə bir nəticə vermədi.

1939-cu il oktyabrın 19-da Ankarada Türkiyə-İngiltərə-Fransa üçlü ittifaq müqaviləsi imzalandı. Bu ittifaq müqaviləsi, Moskvanın qəzəblənməsinə səbəb oldu. Molotov bu müqaviləni sərt şəkildə tənqid etdi. Sovet Teleqraf Agentliyi bu məsələ ilə bağlı rəsmi açıqlama yayir. Sovet mətbuat orqanlarının yenidən hərəkətə keçməsinə, təbliğat və manipulyasiya etməsinə səbəb olur. Türkiyəyə qarşı sərt bəyanatlar Moskvadan gəlməyə başladı. Bununla da ikitərəfli əlaqələr daha da gərginləşdi. [10, səh. 14]

Türkiyənin xarici siyasətinə qarşı irəli sürülən bu mənfi iddialar qəbul edilsə də, SSRİ-nin hələ də Türkiyənin dostluğunu itirmək istəmədiyi acıqca görsənməkdə idi. Türkiyə hakimiyyəti isə 1939-cu ilə qədər xarici siyasətdə heç vaxt sovet reallığını gözdən qaçırmamışdı. Apardıqları təmaslarda keçmiş müttəfiqlərinin xüsusi ilə SSRİ-nin maraqlarını öz maraqları ilə birlikdə gündəmə gətirmişdi. Sovetlərə qarşı heç bir ittifaqa girməmişdi.

1940-cı ilin aprelində Xarici Əlaqələr Xalq Komissarının müavini V. Potyomkin Ankaraya gəldi. Boğazlar haqqında razılaşmaya baxmayaraq, SSRİ orada hərbi bazalar qurmaq üçün güzəştlər əldə etməyi qarşısına məqsəd qoyduğu üçün bu məsələni yenidən gündəmə gətirdi. Türkiyə isə həmişə olduğu kimi, bu təklifi qəbul etmədi. Bunun üzərinə 1940 -cı il iyulun 1-də Stalin: “Türkiyə ilə əlaqələr yaxşılaşa bilər. . . Ancaq boğazların nəzarəti problem həll olunmalıdır” deyə öz niyətlərini açıqca bəyan etdir. Bununla yanaşı həmin dövrdə Moskvadakı Türkiyə səfiri Haydar Aktay, İngilislərin boğazlar problemindən istifadə edərək ruslarla razılığa gəlmək ehtimalına diqqət çəkir. Həmçinin 1940-cı ilin noyabrında Berlində keçirilən Molotov-Ribbentrop danışıqlarında da, Molotov “Boğazlar müqaviləsində Sovetlərin xeyrinə dəyişiklik” olduğunu vurğuladı. [11, səh. 234] Davamı olaraq, 1940 -cı ilin noyabrında Bolqarıstan səfiri tərəfindən rəsmi olaraq Türkiyə Xarici İşlər Nazirliyinə bildirildi ki, Sovetlər bolqarlara Avropa Türkiyəsində Bolqarıstan ambisiyalarının həyata keçirilməsinə kömək edəcəklərini bildirən bir memorandum” verdilər. [12.]

Bu proseslər konteksində baxsaq görərik ki, SSRİ Türkiyəyə qarşı nisbətən soyuq bir siyasət yürütsə də, Türkiyənin digər dövlətlərlə yaxınlaşacağından qoruxurdu. Bir şəkildə dünya müharibəsinə qarışacağı hər zaman onu narahat edirdi. Sovetlərin soyuq münasibəti qarşısında Türkiyənin isə pis bir şəkildə Sovet hücumuna məruz qalacağı gözləntisi vardı. Bunu hiss edən Sovet hakimiyyəti 9 Mart 1941 -ci ildə Türkiyəyə belə bir məlumat məktubu göndərdi: “Türkiyə hər hansı bir xarici dövlət tərəfindən təcavüzə və torpaqlarını silahla müdafiə etmək məcburiyyətində qalarsa Sovet İttifaqının da Türkiyəyə təcavüz edəcəyi qorxusu onlara aydındır. Bunun Sovet Hökumətinin mövqeyinə uyğun olmadığını və əksinə Türkiyə ilə mövcud olan təcavüz etməmək paktına əsaslanaraq, Sovet İttifaqının bitərəfliyinə arxalana bilər.” [6, səh. 222-223] Göründüyü kimi, SSRİ-Türkiyə münasibətləri nə qədər soyuq olsada, SSRİ Türkiyənin ondan qorxmamasına və neytral qalmasına çalışmışdı.

Müharibənin coğrafiyası böyüdükcə ölkələr də yeni strategiyalar hazırlayırdılar. Bu dövrdə, xüsusən Alman-İtalyan-Yapon paktına yaxın olan SSRİ və Türkiyənin gələcəyi ilə bağlı planlar hazırlayırdılar. [6, səh. 214 Bu da onu göstərir ki, əslində müharibənin ilk dövrlərində SSRİ və Türkiyə Almaniyaya daha yaxın görsənirdi. Lakin müddətdə Türkiyə, İtaliya təhdidinə qarşı olaraq İngiltərəni müttəfiq seçdi. Türkiyənin İngiltərə ilə yaxınlaşması, SSRİ və ABŞ-ı narahat etdi. Bununla bərabər Türkiyənin müharibə içərisinə girməməsinin və hər iki müharibə tərəfləri baxımından üstünlükləri var idi. Türkiyə də hər iki qrupla da razılaşmanın yollarnı axtarırdı.

SSRİ isə Polşa, Finlandiya və Baltikyanı ölkələrlə işləri yolunda getdiyi üçün, get-gedə Türkiyəyə münasibətini gündən-günə sərtləşdirdi. Tədricən Montrö Sazişinin yenidən qurulmasını daha çox tələb etməyə niyyətləndi. [13, səh. 165]

Bütün bu siyasi proseslər baş verərkən, 1941-ci ilin mart ayına gəlindiyində SSRİ və Türkiyə münasibətlərini dostluq çərçivəsində bərpa etməyə borclu olduqlarını hiss etdilər. Bunun əsas

səbəbi Almaniyanın SSRİ-yə hücum etməsi təhlükəsi idi. Ankarada aparılan danışıqlar nəticəsində Türkiyə ilə SSRİ arasında təcavüz etməmək haqqında protokol hazırlandı. Bundan sonra Moskva qəzetlərində Türkiyəyə qarşı düşmənçilik yaradan məqalələrin dərc edilməsi dayandırıldı. [5, səh. 15]

Bu arada Türkiyə 18 iyun 1941-ci ildə Balkanlara soxulan və qapıya çatan Almanlarla "Türk-Alman Hücumetməmə Paktı"nı imzaladı. ABŞ, Türkiyəni strateji bir ölkə olaraq itirməkdən qorxaraq, bunun qarşısını almaq üçün bir daha İngiltərə üzərindən Türkiyəyə kömək edəcəyini açıqladı. [14, səh. 145-147]

Bütün bu hadisələr baş verərkən, nəhayət gözlənilən oldu. Almaniya 22 iyun 1941 -ci ildə SSRİ-yə müharibə elan etdi. [13, səh. 165] Müharibə başlayan kimi İngiltərə ilə SSRİ arasında müqavilə imzalandı. Bu müqavilənin gizli müddəaları və torpaqlarındakı hiylələrdən narahat olan Türk Hökumətini razı salmaq üçün hər iki dövlət Türkiyəyə etimad notası verdi: "Sovet Sosialist Respublikaları Birliyi Hökuməti Türkiyəyə olan sadiqliyini təsdiqlədi. Monterö müqaviləsi və Türk hökumətinin Boğazlar üzərində heç bir təcavüzkar niyyətinin və tələbi olmadığını təsdiqlədi. Böyük Britaniya Əlahəzrət Hökuməti, Türkiyə Respublikasının ərazi bütövlüyünə ciddi şəkildə hörmət etməyə hazırdır." deyə bildirdi. [6, səh. 241]

SSRİ-Almaniya müharibəsi başladıqdan dərhal sonra Türkiyənin Moskvadakı səfiri Haydar Aktay iyunun 26-da SSRİ xarici işlər komissarının müavini V.Vışinski ilə görüşdü. Türkiyənin müharibədə bitərəf olacağını bəyan etdi. Sovet ordusu cəbhədə mövqelərini möhkəmləndirənə qədər Moskva Türkiyəyə münasibətini dəyişmədi. Lakin Stalinqrad ətrafında baş verən qarşıdurmalardakı qələbələrdən sonra SSRİ Türkiyəyə münasibətində dönüşlər başlandı. Sovetlər Türkiyənin anti-Hitler koalisiyası ölkələrinə yaxınlaşmasının qarşısını almaq üçün hər cür cəhd göstərdilər. SSRİ Xarici İşlər Xalq Komissarı Molotov, 24 Mart 1943 -cü ildə Türkiyə Səfiri Səlim Sarperi qəbul edərkən, Türkiyə ilə SSRİ arasında birgə addımların atılmasının vaxtının hələ gəlmədiyini söylədi. [5, səh. 15]

İngiltərə və Sovet İttifaqının "Türkiyə müharibədə iştirak etməlidir" fikri və təzyiqləri artdı. [2, səh. 171-178] Bunun ardınca üç böyük dövlətin - İngiltərə, SSRİ və ABŞ-ın dövlət başçıları, Çörçil, Stalin və Ruzveltin 1 dekabr 1943-cü il Tehran [10, səh. 480] görüşünün nəticələrinə görə Türkiyə çətin vəziyyətə düşdü. Çünki Tehran Konfransında İngiltərə və Sovet İttifaqı ilə bərabər ABŞ-da Türkiyənin 1943-cü ilin sonuna kimi müharibədə iştirakı üçün bir fikir birliyinə gəlmişdi. [5, səh. 15]

Türk rəhbərliyi 1944 -cü ilin mayında Sovet İttifaqına siyasi ittifaq təklif etdi. Sovetlər bunun qarşılığında Türkiyədən Almaniya ilə bütün əlaqələrini kəsməsini tələb etdilər. [5, səh. 15] Artıq Türkiyədə də, Almaniyanın və müttəfiqlərinin məğlub olacağı anlaşılmağa başlanmışdı. Müharibədən sonra ortaya çıxacaq dünya platformasında söz sahibi olmaq və milli maraqlarını qorumaq üçün Türkiyə 2 Avqust 1944-cü ildə Almaniya ilə diplomatik və iqtisadi əlaqələrini kəsdi. [15, səh. 307]

4-11 fevral 1945 tarixlərində baş tutan və Yalta Konfransı olaraq tarixə düşən toplantıda, müharibədən sonra yaradılacaq təsir bölgələri və San-Fransisko Konfransına hansı dövlətlərin dəvət ediləcəyi qərara alındı. [16, səh. 249] ABŞ, İngiltərə və Sovet İttifaqı Yalta konfransında bir araya gələrək müharibədən sonrakı dünyanın yenidən qurulması qaydasını və əməkdaşlıq imkanlarını müzakirə etdilər. [17, səh. 46-51] Bir çox qəqarlar qəbul etdilər.

Türkiyə ilə bağlı yaxşı niyyəti olmayan SSRİ yanaşmalarının ilk siqnalları 4-11 fevral 1945-ci il tarixlərində keçirilən Yalta Konfransında özünü göstərdi. Konfrans zamanı Sovet lideri İosif Stalin, Montrö Boğazlar Konvensiyasının öz qüvvəsini itirdiyini və yenilənməsi lazım olduğunu söylədi. [18, səh. 266] ABŞ prezidenti Franklin Ruzvelt Stalinin təklifini bəyəndi. Bildirdi ki, ruslar isti dənizlərə rahat enmək hüququna malik olmalıdırlar. İngiltərə Baş naziri Uinston Çörçill isə daha ehtiyatlı yanaşdı. Bu dəyişikliklərin Türkiyənin müstəqilliyinə və ərazi bütövlüyünə uyğun olaraq edilməsini istədi. [19, səh. 137]

Sovet İttifaqının tələbi ilə Türkiyə Boğazları məsələsi də konfransın proqramına salındı. Bu məsələ isə Türkiyəni bir başa əlaqələndirirdi. ABŞ və İngiltərə Sovet İttifaqının Boğaz rejiminin yenilənməsinin və dəyişdirilməsinin lazım olduğu fikri ilə razılaşdı. Bu şərtlər Türkiyə üçün xoşagəlməz bir qərar verməsi arzusunu formalaşdırdı. Baxmayaraq ki, ABŞ Türkiyə münasibətləri müsbət müstəvidə inkişaf edirdi. Türkiyə hər zaman Boğazlarda ABŞ üçün lazımi şərtləri sağlamışdı. [17, səh. 46-51]

Türkiyə bu məsələ haqqında ABŞ-ın münasibətini bilmək istədi. ABŞ, o dövrdə Uzaq Şərqlə maraqlandığı üçün ABŞ Sovet ikitərəfli münasibətləri çərçivəsində öz istəklərini qiymətləndirərək bu məsələyə reaksiya vermək istəmədi. [20, səh. 273]

Yalta Konfransında alınan qərarlara uyğun olaraq, müharibədən sonrakı formalaşmalardan uzaq qalmaq istəməyən Türkiyə 23 fevral 1945-ci ildə Yaponiya və Almaniyaya müharibə elan etdi.

Yalta Konfransından sonra Rusiya tərəfi Türkiyəyə qarşı daha aydın bir ton nümayiş etdirməyə başladı. 24 fevral 1945 -ci ildə Türkiyənin Moskva səfiri Səlim Sarperə SSRİ xarici işlər naziri Vyaçeslav Molotov arasında görüç keçirildi. Molotov görüşlərdə boğazları ikitərəfli şəkildə müzakirə etmək istədiyini bildirdi. Sarper, Montrö Boğazları Konvensiyasının çoxtərəfli bir razılaşma olduğunu ifadə edərək, təklifə isti baxa bilməyəcəklərini ifadə etdi. [21, səh. 276]

Eləcə də, Yaponiya və Almaniyaya müharibə elan edilməsi nəticəsində San-Fransisko Konfransına dəvət olunma haqqını qazanan Türkiyə, Sovet Xarici İşlər naziri Molotovun 19 Mart 1945 -ci ildə Türkiyənin Moskvadakı səfiri Səlim Sarperə verdiyi nota ilə olduqca təəccübləndi. Notada 17 dekabr 1925-ci ildən etibarən qüvvədə olan “Türk-Sovet Dostluq və Bitərəflik Müqaviləsinin” dəyişən dünya şəraiti nəticəsində funksiyasını itirdiyindən və təkmilləşdirilməsindən bəhs edilir. Sovet hökuməti müqavilə müddəti bitdikdən sonra onu ləğv etmək istəyir deyə bəhs edilir. [6, səh. 276] Bu notanı aldıqdan sonra Türkiyə Hökuməti iki ölkə arasındakı əlaqələri yaxşılaşdırmaq məqsədi ilə bir sıra danışıqlar apardı. Türkiyənin istəyi, 1925-ci il müqaviləsini əvəz edəcək və günün şərtlərini əhatə edən yeni bir razılaşma əldə etmək idi. Səfir Sarper və Molotov bu problemləri müzakirə etmək üçün 7 iyun 1945-ci ildə Moskvada bir araya gəldilər. [5, səh. 16] SSRİ yeni bir razılaşma, yeni bir sərhəd tənzimlənməsi, Qarsın, Ardahanın Sovet İttifaqına buraxılmasını, Montöre Anlaşmasını yenidən təşkil edilməsini və Boğazlarda Sovet bazalarının qurulmasını istəyirdi. SSRİ-nn bu istəklərini həyata keçirmək üçün Molotov bildirirdi ki, Ruslara görə, 1921-ci il martın 16-da Moskva müqaviləsi imzalananda Rusiya zəif idi. Ona görə də, Türkiyəyə ərazi güzəştləri etmişdi. O vaxt təyin olunan Türk-Sovet sərhədində SSRİ-nin xeyrinə düzəlişlər edilməlidir. [17, səh. 56] Qars və Ərdahan Gürcüstan və Ermənistana verilməlidir. Həmçinin Sovet Rusiyasının Boğazların müdafiəsindən əmin olmaq istədiyir. Ona görə də, Türkiyənin boğazları nə qədər qoruya biləcəyini Səfir Sarperdən soruşur. Sarper isə boğazları bacardıqları qədər qoruyacaqlarını və Türkiyənin təhlükəsizliyi təhlükə altında düşdükdə isə, o dövrün şərtləri altında SSRİ-dən silah və materiallar alaraq boğazların təhlükəsizliyini artıra biləcəklərini söylədi. [21, səh. 284-285] Molotov boğazların Türkiyə-SSRİ-nin birgə müdafiəsi altına alınmasını və Sovet İttifaqına Boğazlarda quru və dəniz bazalarının verilməsini açıq şəkildə tələb edirdi. Molotov həm də, Boğazlarla əlaqədar bir tənzimləmə edilməzdən əvvəl Türkiyə ilə SSRİ arasında razılaşaraq birgə hərəkət etmələrinin doğru olacağını ifadə etdi. Bunun üzərinə Sarper, Molotova söylədi ki, digər dövlətləri şübhə altına alacaq belə bir razılaşmanın doğru olmayacaqdır. Türkiyə belə bir razılaşmanı qəbul etməyəcəkdir. [22, səh. 103] Görüşün sonunda Molotov Boğazlarda təhlükəsizliyin Türkiyənin iradəsinə və gücünə buraxıla bilməyəcəyini bildirdi. SSRİ-nin təklif etdiy yeni müqavilə ilə bağlı təkliflərinin qəbul edilməsini istəyirdi.

Bu görüşdə Türkiyə qəbul edə bilməyəcəyi təkliflərlə qarşılaşdı. Türkiyədə böyük bir sürpriz və reaksiya ilə qarşılanan bu təkliflər, əlbəttə ki, Türk Hökuməti tərəfindən qəbul edilmədi. Bu narazılıq barədə dərhal SSRİ Hökumətinə bildirildi.

1945-ci il iyunun 18-də ikinci dəfə bir araya gələn Molotov-Sarper ikilisi eyni mövzuları yenidən müzakirə etdi. Sovetlər tələblərini təkid etdikdə heç bir razılıq olmadan görüşü bitirdilər.[5, səh. 16] Molotov ilk görüşdən əlavə, Gürcüstan və Ermənistanın hüquqlarının SSRİ tərəfindən qorunacağını açıq şəkildə ifadə etdi. [23, səh. 121-122]

5 iyul 1945 -ci ildə İngiltərə, SSRİ-nin tələblərinin səhv olduğunu və Türkiyənin ərazi bütövlüyünə qarşı hərəkətinin yaxşı qarşılanmayacağını bildirən bir bəyanatı SSRİ Xarici İşlər Nazirliyinə yolladı. Sovetlər bu xəbərdarlığa cavab vermədi. [21, səh. 287-290]

Türkiyə isə SSRİ-nin istəklərinə qarşı ABŞ-ın fikrini bilmək istədi. Cünki, bu ölkənin Türkiyənin xeyrinə verəcəyi açıqlamanın Sovet Rusiyası üçün daha təsirli olacağına inanırdı. 7 iyul 1945-ci ildə ABŞ Dövlət Departamenti Türkiyə-SSRİ münasibətlərinin dostcasına davam etdiyini və heç bir təhlükənin olmadığını bəyan etdi. Beləliklə, ABŞ Türkiyənin SSRİ-yə qarşı mövqe nümayiş etdirmək istəyini heç də xoş qarşılamadığını açıq şəkildə ifadə etdi. [17, səh. 58-59]

ABŞ, İngiltərə və Sovet Rusiyasının iştirakı ilə 17 - 25 iyul və 28 iyul - 2 Avqust 1945 tarixlərində Berlində Potsdam Konfransı keçirildi. 17 iyul 1945-ci ildə toplanan Postdam Konfransının mövzusu yenə müharibədən sonrakı dünya nizamı ilə əlaqədar idi. [16, səh. 249] SSRİ-Türkiyə münasibətləri dəfələrlə müzakirə edildi. Konfransının 6-cı sessiyasında Boğazlar məsələsi gündəmə gətirildi. Çörçill Sovet gəmilərinin boğazlardan sərbəst keçməsinə isti yanaşsa da, Türkiyəni narahat etməməyi üstün tutdu. [24, səh. 51] Çünki Boğazlardan Sovet gəmilərinin sərbəst keçməsi İngiltərənin də maraqlarına uyğun deyildi. O Aralıq dənizində nufuzunu itirə bilərdi. Konfransda Stalin özü Türkiyə ilə bağlı fikir və təkliflərini dünya ictimai fikrinə, daha doğrusu, müharibənin qalib dövlətlərinin rəyinə təqdim etdi. Sovet İttifaqı ticarət və hərbi gəmilərinin hər zaman Boğazlardan sərbəst keçməsini tələb etdi. Eləcə də, Sovet İttifaqının Boğazlardakı marağına, yalnız Türkiyə ilə ikitərəfli bir problem olaraq baxılmasını və Boğazlarda dəniz və quru bazalarının yaradılmasını istədi. Stalinin belə hərbi bazaların yaradılmasını istəməsi geniş müzakirələrə səbəb oldu. Çörçil bunu qəbul etməyərək Türk Boğazlar məsələsinin ABŞ-ı və bütün dünyanı əlaqələndirdiyini İngiltərə və ABŞ-ın da bu müzakirələrə qoşulmasının vacib olduğunu söylədi. [2, səh. 195-196] Truman boğazların beynəlxalq su yolları kimi qəbul edilməsini istəyirdi. ABŞ və İngiltərənin SSRİ gəmilərinin boğazlardan keçməsinin üç böyük dövlətin və boğazlarla əlaqəli digər ölkələrin güvəncəsi ilə keçməni təmin etmək təklifi Stalin tərəfindən rədd edildi. [23, səh. 123] Ortaq bir fikir razılaşdırıla bilmədikdə, hər üç tərəfin fikirlərinin ayrı-ayrılıqda Türkiyəyə bildirəcəyinə qərar verildi. Bu tələb ABŞ və İngiltərə tərəfindən məmnuniyyətlə qarşılandı. Nəticə də, hər üç dövlət - ABŞ, İngiltərə və SSRİ Türkiyəyə Boğazlar məsələsinə dair öz görüşlərini göndərdilər. Birbaşa Türkiyə hökuməti ilə danışıqlar aparmağa qərar verildi. [25, səh. 280]

İngiltərə, Potsdam Konfransında alınan qərara əsasən, 1 noyabr 1945-ci ildə fikirlərini özündə əks etdirən notanı Türkiyəyə çatdırdı. Bu qeyddə, Boğazlar məsələsinin Sovetlər və Türkiyə arasında deyil, beynəlxalq bir konfransda müzakirə edilməsi lazım olduğu ifadə edildi. [23, səh. 123]

ABŞ, Boğazlardakı dəyişkən mövqeyini Türkiyəyə göndərdiyi 2 noyabr 1945 -ci il tarixli bir notada ortaya qoydu. [17, səh. 64-62] Bu notada, ABŞ-ın boğazlardan sərbəst keçmək mövzusunda həssas olduğu bildirildi. Türk Boğazları ilə əlaqədar alınacaq qərarın beynəlxalq təhlükəsizliyi artıracaq bir şəkildə olması lazım olduğu ifadə edildi. ABŞ, mövzu ilə əlaqədar bir konfransa dəvət alacağı təqdirdə iştirak etmək istəyini ifadə edərək, boğazlarda ciddi dəyişikliklər etmək fikrindən əl çəkdiyini söylədi. [26, səh. 212-213]

Türkiyə ABŞ -ın notasını alqışladı. Sovetlərlə razılaşmaq üçün yollar axtaran ABŞ-ı qıcıqlandıracaq bir yanaşmadan uzaq durmağa çalışdı. Sovet tərəfi isə ABŞ notasını qəti şəkildə rədd etdi. [23, səh. 124]

8 Avqust 1946-cı ildə Sovet İttifaqı Boğazlarla əlaqədar olaraq Türkiyənin Xarici İşlər Nazirliyinə yenidən nota verdi. [6, səh. 305] Notadakı şərtlər aşağıdakı kimi idi:

1. Boğazlar həmişə bütün ölkələrin ticarət gəmilərinə açıq olmalıdır.
2. Boğazlar Qara dəniz dövlətlərinin döyüş gəmilərinə həmişə açıq olmalıdır.
3. Qara dənizdə sahili olmayan dövlətlərin döyüş gəmiləri Xüsusi hallar istisna olmaqla, boğazlardan keçməsi qadağan edilməlidir.
4. Boğazlar rejiminin təyin edilməsi Türkiyə və digər Qara dəniz dövlətlərinin səlahiyyətində olmalıdır.
5. Türkiyə və SSRİ bu rejimin tətbiqini və Boğazların müdafiəsini birgə həyata keçirməlidir. [21, səh. 287-290]

Notanın beşinci maddəsi ilk növbədə reaksiyalarla qarşılandı. Ruslar bu maddə ilə Boğazlar üzərində nəzarəti ələ keçirməyi açıq şəkildə məqsəd qoymuşdular. [23, səh. 127] Bu notayla SSRİ Çar Rusiyasının işğalçı siyasətini, I Pyotrun açıq və isti dənizlərə çıxmaq, Bosfor və Çanaqqala boğazlarını ələ keçirmək barədə vəsiyyətini əks etdirdilər. [5, səh. 17]
Türkiyə Sovet notasına cavab verməzdən əvvəl ABŞ və İngiltərənin fikirlərini öyrənmək istədi. Amerika Birləşmiş Ştatları nota məsələsi ilə yaxından maraqlandı. Məsələ 15 Avqust 1946 -cı ildə Ağ Evdə keçirilən toplantıda gündəmə gətirildi. Türkiyəyə qarşı bir hücum olarsa, ABŞ birbaşa Türkiyəyə dəstək verməlidir fikirləri qəbul edildi. [27, səh. 56]

7 Avqust 1946-cı il tarixli Sovet notasına Türkiyədən şiddətlə rədd cavabı verildi. Lakin 24 sentyabrdan 25-nə kecən gecə Türkiyə Xarici İşlər Nazirliyinə yeni bir SSRİ notası gəldi. [18, səh. 423-428] Notada Türkiyənin bu münasibətinin, dostluq müqaviləsi imzalamaq istəyinə uyğun olmadığı bildirildi. Sovet tərəfinin Boğazlarla bağlı konfransın çağırılmasının əleyhinə olmadığı, lakin konfransdan əvvəl bu məsələnin Türkiyə ilə ətraflı müzakirə edilməsinin uyğun olacağı qeyd edilmişdi. [23, səh. 128-129] Bununla bərabər 24 sentyabr 1946-cı il tarixli notada, Qars, Ardahan və Trabzonun da daxil olduğu əraziləri və Boğazlar üzərində nəzarəti tələb etməklə təcavüzkar niyyətini açıq şəkildə göstərdi. Notanın verildiyi vaxtda Sovet hərbi hissələri artıq SSRİ və Türkiyə sərhədlərində toplaşmağa və hazırlıqlara başlamışdı. [5, səh. 17]

Bu tarixdən sonra iki ölkə arasındakı münasibətlər xeyli gərginləşdi. 1946-cı ilin sonlarına doğru SSRİ Bolqarıstanda və Qafqazda, Türkiyə isə Pasinler ətrafında hərbi birləşmələr toplamağa başladı.

Ümumilikdə Müttəfiq dövlətlər Potsdam Konfransında SSRi-nin Türkiyəndən ərazi istəyini, yalnız iki ölkə arasında bir problem olaraq görürdü. Lakin sonra Sovet İttifaqı dayanmasa, Sovet İttifaqı bölgədəki genişləndirmə siyasətini davam etdirərdi. Bu bağlamda Türk hökuməti, müstəqilliyini və ərazi bütövlüyünü itirərdi. Türkiyə Sovet İttifaqı təhlükəsindən qorumaq üçün, Boğazlar məsələsinin həllini dəstəklədiyini bəyan edən ABŞ-dan dəstək almağa çalışdı.

25 oktyabr 1946 -cı ildə İngiltərə Yaxın Şərqin müdafiəsi üçün yeni bir plan bəyan etdi. [28, səh. 26] Türkiyənin bu plana daxil olmaq istəyi SSRİ-də böyük reaksiya və narazılıqla qarşılandı. Bununlada siyasi münasibətlərin gərgin olması digər platformalarda da özünü göstərdi. [28, səh. 28]

ABŞ və İngiltərə, SSRİ təhlükəsinin yayılma tendensiyasında olduğunu gördü. 9 oktyabr 1946-cı ildə Sovet Dövlətinə birlikdə boğazların hökmranlığının Türkiyədə olduğunu xatırladan bir nota verdilər. ABŞ və İngiltərənin birgə notasında Türkiyə ilə SSRİ arasında heç bir ikitərəfli danışıqlar prosesinin olmayacağı söylənildi. ABŞ və İngiltərənin də bu prosesdə iştirak etməli olduğu və Boğazlara qarşı bir hücum olacağı təqdirdə, bunun BMT Təhlükəsizlik Şurasına gətiriləcəyi ifadə edildi. [21, səh. 307]

Türkiyə isə İngiltərə və ABŞ-ın yanında olmasından məmnun olaraq, 18 oktyabr 1946-cı ildə SSRİ-yə ilk cavab notasına bənzər bir nota göndərdi. Boğazların birgə müdafiəsinin Türkiyənin suveren hüququnun pozulması mənasına gəldiyi bildirildi. Ümumi müdafiə səbəbiylə xarici bir dövlət üçün bir baza qurulmasının tərəfdarı olmadığı bir daha SSRİ-yə xatırladıldı. [23, səh. 128-129]

Türkiyənin göndərdiyi cavab notasına Sovetlərdən cavab gəlmədi. Boğazlarla bağlı konfrans tələbi bir daha irəli sürülmədi və Montrö Boğazlar Konvensiyasının tətbiqinə davam edildi. [21, səh. 308]

SSRİ-Türkiyə münasibətlərini qısaca olaraq ümumiləşdirmək lazım gəlsə, qeyd etməliyik ki, hər iki ölkənin quruluş illəri bir-birinə yaxındır. Bu səbəbdən onlar arasındakı münasibətlər bu mərhələdə digər qarşı qüvvələrlə mübarizə apardıqları üçün 1917-ci ildə dostluqla başladı. Bu münasibətlərin məzmunuda dövrün tələblərinə uyğun idi. 1920-ci illər ərzində daim irəliləyən və yüksələn bu əlaqələr, 1935-ci ilə qədər davam etmişdi. Sovet İttifaqı daxili problemlərini tamamilə aradan qaldıraraq qlobal bir güc olmaq siyasətinə başlayanda isə, bu münasiətlər eyni şəkildə davam etdi. 1935-ci ildən sonra Sovet İttifaqı təsir dairəsini genişləndirmək və ideologiyasını dünyada yaymaq siyasətini qəbul etdi. SSRİ-nin tam fəaliyyət sahəsini təyin etdiyi illərdə İkinci Dünya Müharibəsi başladı. SSRİ müharibənin gətirdiyi şəraitdə yenidən Türkiyəyə yaxınlığını göstərdi. Müharibənin SSRİ-nin xeyrinə başa çatacağı Stalinqrad döyüşlərində anlaşıldıqdan sonra SSRİ-Türkiyə münasibətləri soyumağa başladı. Bunun səbəbi, SSRİ-nin artıq Türkiyənin köməyinə ehtiyacı olmadığını düşünməsi və Türkiyəni müharibədən sonra qurulacaq dünya nizamından kənarlaşdırmaq istəməsidir. Bunlarla bərabər Boğazlarda SSRİ-nin maraqlarının olması bu münasibətləri gərginləşdirmişdi.

### ***Ədəbiyyat***


1. İsmail Soysal, “Balkan Paktı (1934-1941)”, Ord. Prof. Yusuf Hikmet Bayur’a Armağan, TTK Yayınları, Ankara 1985.
2. Mehmet Gönlübol, Cem Sar, Atatürk ve Türkiye’nin Dış Politikası (1919 – 1938), Ankara, Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurulu Atatürk Araştırma Merkezi, 1997.
3. Montreux Boğazlar Konferansı Tutanaklar Belgeler, Çev: S.L. Meray-O.Olcay, Ankara Üniversitesi SBF Yayınları No: 390, Ankara 1976.
4. Necati Sözüöz, Türk – Amerikan İlişkilerine Genel Bir Bakış (1923 – 1950), İstanbul, Fakülteler Matbaası; 1992.
5. Musa Qasımlı, Türkiye-Sovyet Sosyalist Cumhuriyetleri Birliği ilişkileri 1960-1980. Türkiye Türkçesine aktaran: Alpertunga Altaylı.– Ankara: AKDTYK Atatürk Araştırma Merkezi, 2013.
6. Kamuran Gürün, Türk-Sovyet İlişkileri, TTK Yayınları, Ankara 1991.
7. Tarık Zafer Tunaya, Türkiye’de Siyasi Partiler 1859-1952, ArbaYay.,2. Bakı, İstanbul 1995
8. ÖmerKürkçüoğlu,“Türk-Irak İlişkilerinde Son Gelişmeler”,AÜSBF Dergisi,C.27,S.4, 1972.
9. Zeki Kuneralp, İkinci Dünya Harbi’nde Türk Dış Siyaseti: Dışişleri Bakanlığı’nın Onbir Telgrafı, İstanbul Matbaası, 1982.
10.Fahir Armaoğlu,20.Yüzyıl Siyasi Tarihi (1914-1990), 8.Baskı,C.1,TİB Yay., Ankara 1992.
11. Beddie and Sonniag, Nazi-Soviet Relations 1939-1941, s. 234.
12. Menemencioğlu'nun 30 Ocak 1942 tarihli mülakat zaptı.
13. Liddel Hart, II. Dünya Savaşı Tarihi, C.I, Çev. Kerim Bağrıaçık, YKY Yayınları, İst 2000.
14.Ahmet Şükrü Esmer, Oral Sander, “İkinci Dünya Savaşı’nda Türk Dış Politikası”, Olaylarla Türk Dış Politikası(1919-1965), Dış İşleri Bak. , Ankara 1968.
15. Osman Akandere, Milli Şef Dönemi, İz Yayıncılık, İstanbul 1998.
16. Selim Deringil, Denge Oyunu, Tarih Vakfı Yurt Yayınları, İstanbul 2000.
17. Haluk Ulman, Türk-Amerikan Diplomatik Münasebetleri (1939-1947), Ankara 1961.

18.Feridun Cemal Erkin, Türk- Sovyet İlişkileri ve Boğazlar Meselesi, Başnur Matbaası, Ankara, 1968.
19. Kamuran Gürün, Dış İlişkiler ve Türk Politikası, AÜSBF Yayınları, Ankara, 1983.
20.Suat Bilge, Güç Komşuluk (Türkiye-Sovyetler Birliği İlişkileri 1920-1964), Ankara, 1992.
21. Kamuran Gürün, Türk- Sovyet İlişkileri(1920-1953), TTK Basımevi, Ankara, 2010.
22. Nejat Eralp, "İkinci Dünya Savaşı Sonrasında Boğazlar Sorunu, İngiliz ve Amerikan Basınındaki Akisleri", Beşinci Askeri Tarih Semineri Bildirileri I, 23-25 Ekim 1995, Genelkurmay Basımevi, Ankara, 1996.
23. Sabit Dokuyan. İkinci Dünya Savaşı Sonrasında Sovyetler Birliği'nin Türkiye'den İstekleri. Cumhuriyet Tarihi Araştırmaları Dergisi Yıl 9 Sayı 18 (Güz 2013).
24. Türkkaya Ataöv, Amerika, NATO ve Türkiye. Aydınlık Yayınevi, Ankara, 1969.
25. Cüneyt Arcayürek, İkinci Dünya Savaşı ve İki Cephede Türkiye. İstanbul, 2010
26. Mehmet Gönlübol, Cem Sar, Ahmet Şükrü Esmer vd., Olaylarla Türk Dış Politikası (1919- 1973), Sevinç Matbaası, Ankara, 1974.
27. Yusuf Sarınay, Türkiye'nin Batı İttifakına Yönelişi ve NATO'ya Girişi, Kültür ve Turizm Bakanlığı Yayınları, Ankara, 1988.
28. Feroz Ahmad – Bedia Turgay Ahmad, Türkiye'de Çok Partili Politikanın Açıklamalı Kronolojisi, Bilgi Yayınevi, Ankara 1976.

## USSR-TURKEY RELATIONS DURING THE SECOND WORLD WAR

***Ismayilov Ismayil Akif***

***Summary***

The process of development of history shows that the study of bilateral relations between the USSR and Turkey is still relevant today. Historical facts also show that the USSR and Turkey made extensive use of bilateral relations to take their place in the system of international relations. Soviet-Turkish relations until the mid-1930s can be characterized as entirely friendly and fraternal. The relations between the USSR and Turkey during the Second World War are very contradictory. Therefore, the goal is to study this period.

If we look at the USSR-Turkey relations in general during the Second World War, we can see that the USSR wanted Turkey to remain neutral until it joined the war in 1941. Therefore, the relations continued in a positive direction. This situation lasted until the Soviets began to defeat the German army. After the light of victory appeared on the horizon, the USSR began to pursue a new policy to keep Turkey neutral. Especially, in the problem with the Turkish Straits, they began to attack Turke. In such an environment, USSR-Turkey relations became tense. There were even times when all relations came to a breaking point. The main reason for this is that the USSR no longer needs Turkey's help and wants to exclude Turkey from the post-war world order. At the same time, the political conflicts between the two countries showed social and economic problems. This aggravated the relationship.

## ОТНОШЕНИЯ СССР И ТУРЦИИ В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

***Исмаилов Исмаил Акиф оглы***

***Резюме***

Процесс развития истории показывает, что изучение двусторонних отношений между СССР и Турцией актуально и сегодня. Исторические факты также показывают, что СССР и Турция широко использовали двусторонние отношения, чтобы занять свое место в системе международных отношений. Советско-турецкие отношения до середины 1930-х годов можно охарактеризовать как полностью дружеские и братские. Отношения между СССР и Турцией во время Второй мировой войны очень противоречивые. Поэтому есть необходимость изучить этот период.

Если мы посмотрим на отношения между СССР и Турцией в целом во время Второй мировой войны, мы увидим, что СССР хотел, чтобы Турция оставалась нейтральной до тех пор, пока она не вступила в войну в 1941 году. Таким образом, отношения продолжались в положительном направлении. Такая ситуация продолжалась до тех пор, пока Советы не начали разгромить немецкую армию. После того, как на горизонте появился свет победы, СССР начал проводить новую политику, направленную на сохранение нейтралитета Турции. Особенно, в проблеме с Турецкими проливами стали наступать на Турцию. В такой обстановке отношения между СССР и Турцией обострились. Были даже моменты, когда все отношения доходили до разрыва. Основная причина этого в том, что СССР больше не нуждается в помощи Турции и хочет исключить Турцию из послевоенного мироустройства. В то же время политические конфликты между двумя странами выявили социальные и экономические проблемы. Это обострило отношения.

***Rəyçi: dos. V.R. Veysəlova***
***Ümumi tarix kafedrasının 10 sentyabr 2021-ci il tarixli iclasının 01 saylı protokolu.***
***Daxil olma tarixi 30 sentyabr 2021-ci il.***

**UOT:94**

## AZƏRBAYCANIN GƏDƏBƏY BÖLGƏSİNİN ERKƏN ORTA ƏSRLƏR TARİXİ – COĞRAFİYASI

***Mehdiyev Eldar***
***Gəncə Dövlət Universiteti***
***Eldarmeh1@gmail.com***

**Xülasə:** *Bu məqalədə Azərbaycanın Gədəbəy bölgəsinin erkən orta əsrlər tarixi - coğrafiyası tədqiq olunmuşdur. Gədəbəy rayonu Kiçik Qafqazın Şimal – şərq yamacını, Şəmkirçay, Zəyəmçay və Axıncıçay vadilərinin ərazisini əhatə edir. Bu ərazi qərbdən və cənub – qərbdən Kiçik Qafqaz dağ silsiləsi, cənubdan və cənub-şərqdən Şəmkirçay vadisi, şimaldan Zəyəmçay və Axıncıçay vadiləri, şərqdən Şəmkir rayonu ilə həmsərhəddir. Qeyd edilir ki, Gədəbəy bölgəsi erkən orta əsrlərdə də intensiv məskunlaşma zonalarından biri olmuşdur. M.Kalankatuklunun "Albaniya tarixi" əsərindəki bir sıra məlumatları müqayisə edərkən Gədəbəy bölgəsinin tarixi – coğrafi baxımdan Girdiman vilayəti ilə uyğunluq təşkil etdiyini və ən azından, bu vilayətin tərkib hissəsi olduğunu demək olar. Erkən orta əsrlərdə Girdiman dövlətinin böyük filiz mədənlərinin olduğu məlumdur. Gədəbəy bölgəsinin bir çox yerlərində tapılan qədim külçələr də bunu təsdiq edir. Ümumiyyətlə sadalanan faktlara əsasən Azərbaycanın Gədəbəy bölgəsinin erkən orta əsrlərdə Qafqaz Albaniyasının Girdiman vilayətinin tərkibində lokallaşdırılmasının mümkünlüyü qənaətinə gəlmək olar.*

**Açar sözlər:** Gədəbəyin tarixi – coğrafiyası, arxeologiya, Alban abidələri, Girdiman vilayəti, Kiçik Qafqaz, Şəmkirçay hövzəsi, Zəyəmçay, Axıncıçay

**Ключевые слова**: Историческая география Кедабека, археология, Албанские памятники, Гирдиманская область, Малый Кавказ, бассейн Шамкирчая, Заямчай, Ахинчичай

**Key words:** Historical geography of Gadabay, archeology, Albanian monuments, Girdiman region, Lesser Caucasus, Shamkirchay basin, Zayamchay, Akhinchichai

Gədəbəy bölgəsi Kiçik Qafqazın Şimal – şərq yamacını, Şəmkirçay, Zəyəmçay və Axıncıçay vadilərinin ərazisini əhatə edir. Bu ərazi qərbdən və cənub – qərbdən Kiçik Qafqaz dağ silsiləsi, cənubdan və cənub-şərqdən Şəmkirçay vadisi, şimaldan Zəyəmçay və Axıncıçay vadiləri, şərqdən Şəmkir rayonu ilə həmsərhəddir. Gədəbəy rayonunun ərazisi